**AMEA RMİ-nin "Cəbr və riyazi məntiq" şöbəsinin 2015-ci il üçün**

**H E S A B A T I**

Heasabat dövründə şöbədə "Topologiya və nəzəri fizikada cəbr və məntiqin üsullarının tətbiqi" və "Nəsirəddin Tusinin riyazi və məntiqi əsərlərinin tədqiqi" mövzuları üzrə 10 icraçını birləşdirən 6 iş aparılır. Şöbənin əməkdaşları tərəfindən 2015-ci ildə 8 məqalə və 2 kitab çap edilmişdir. Bundan əlavə 1 məqalə və 1 kitab çapdadır, 4 məqalə çapa hazırlanmışdır.

Aprel ayının 24-də Orenburq şəhərində keçirilmiş Beynəlxalq Konfransa şöbə müdiri dos. Əli Babayev və b.e.i. Valeriya Məclumbəyovanın göndərdikləri "О трактате Насиреддина Туси "Сборник по арифметике с помощью доски и пыли"" adlı məqalə konfransın materiallarında dərc edilmişdir.

Aparıcı elmi işçi f.-r.e.n. Eminağa Məmmədovun prof. M.Mərdanov, və prof. S.Mirzəyevlə birlikdə "Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar III " kitab nəşr edilmişdir.

Nəsirəddin Tusinin "Təcrid əl məntiq" əsəri ərəb dilindən rus dilinə tərcümə edilib nəşr olunmuşdur.

N.Tusinin "Evklidin şərhi" əsərinin azərbaycan dilindən rus dilinə tərcüməsi işi davam etdirilir.

N.Tusinin "Arximedin "Şar və slindir" kitabına şərh" əsərinin ərəb dilindən azərbaycan dilinə tərcüməsi davam etdirilir.

Şöbə müdiri Əli Babayev iyun ayının 4-də Rusiya Elmlər Akademiyasının V.A.Steklov adına Riyaziyyat İnstitutunun Sankt-Peterburq filialında keçirilmiş Beynəlxalq seminarda "Насиреддин Туси (1201-1274)" mövzusunda dəvətli məruzə etmişdir.

Noyabr ayının 5-də f.-r.e.n. E.Məmmədov institutun rəhbərliyi ilə birlikdə İsmayıllı rayonunda AMEA-nın müxbir üzvü professor Maqsud Cavadovun xatirəsinə həsr edilmiş məktəblilərin riyaziyyat olimpiadasının təşkilində iştirak etmişdir.

Şöbə müdiri Əli Babayev Lider televiziya kanalında $\pi$ ədədi haqqında çıxış etmişdir.

**Şöbə müdiri:** **f.-r.e.n., dos. Əli Babayev**